**İlahə İSRAFİLOVA**
Ü.Hacıbəyli adına BMA-nın doktorantı və elmi işçisi
Elmi rəhbər: fəlsəfə üzrə elmlər doktoru, professor Abdullazadə Gülnaz
Ünvan: Bakı ş, Ş.Bədəlbəyli küç. 98
E-mail: *ilaha.qismat@mail.ru*

# ŞAMAXININ MUSİQİ TARİXİ VƏ MƏDƏNİ MƏNZƏRƏSİ ELM XADİMİ SEYFƏDDİN QƏNİYEVİN TƏDQİQATLARINDA

***Xülasə:*** *Məqalə Şamaxının tanınmış folklorşünası, alim, pedaqoq Seyfəddin Qəniyevin həyat və yaradıcılığına, Şamaxı bölgəsində musiqi, muğam, aşıq sənəti istiqamətləri üzrə apardığı uzunmüddətli tədqiqat işlərinə və bu araşdırmalardan ərsəyə gəlmiş çoxsaylı kitabların mahiyyətinə həsr olunmuşdur. Qeyd olunan əsərlərdə musiqi, muğam, aşıq sənətinə olan münasibət folklorşünas, filoloq nəzərindəndir. Lakin bununla yanaşı S.Qəniyev fikirlərinə peşəkar ustad nəzərlərini, xatirələrini də əlavə edərək yazıların elmi mahiyyətini daha da artırmış, araşdırmalarını tədqiqat zamanı qarşısına çıxan önəmli faktlarla zənginləşdirmişdir. Həmçinin, məqalədə S.Qəniyevin Şamaxının ənənəvi musiqi mühiti haqqında yazdığı kitab və elmi yazılarında razılaşmadığımız məqamlara etnomusiqişünas nəzəri ilə açıqlama gətirilmişdir.*

***Açar sözlər:*** *Mahmud Ağa, muğam məclisi, aşıq sənəti, Şamaxı folkloru, Seyfəddin Qəniyev, folklor, Şirvan musiqi mühiti*

Şirvan bölgəsinin mədəni həyatını tədqiq edərkən dəyərli elm xadimi, həyatını Şirvan mühitinin elmi tədqiqinə həsr etmiş Seyfəddin Qəniyevin yaradıcılığı diqqət çəkir. Onun araşdırmalarında, xüsusilə də Şamaxı rayonunun tarixi mədəniyyəti təkcə ixtisası üzrə filoloji aspektdən deyil, müxtəlif istiqamətlərdən müəyyən qədər açılmışdır. Qədim paytaxt Şamaxının köklü mədəni ənənələri bütün Şirvan mahalını əhatə etdiyindən S.Qəniyev tədqiqatlarında Şamaxı rayonunun mədəni irsini ətraflı açmaq məqsədi ilə ümumi Şirvan bölgəsinə nəzər yetirir.

S.Qəniyev qürurverici həyat yolunda bir neçə mərhələlərdən keçmişdir – Poladlı kənd 8 illik və Nərimankənd orta məktəbini tərifnamə ilə, ADPİ-nin Filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmiş və həmin institutun aspiranturasında təhsil almışdır. Şamaxı rayonunun Göylər kənd məktəbində müəllim işləmiş və çalışdığı müddətdə “metodist müəllim”, “SSRİ Maarif əlaçısı” adlarına layiq görülmüşdür. Azərbaycan müəllimlərinin dördüncü qurultayının nümayəndəsi olmuşdur. Elm sahəsində S.Qəniyev “M.F.Axundovun “Kəmalüddövlə məktubları” əsərinin bədii metod və janr xüsusiyyətləri” mövzusunda namizəd-

lik, “Azərbaycan folklorunun regional özünəməxsusluğu - Şirvan folklor mühiti” mövzusunda isə doktorluq dissertasiyası müdafiə etmişdir. Yazı dili olduqca sadə və anlaşıqlı olan tədqiqatçının əsərlərində bədiilikdən yüksək məharətlə istifadə olunur.

Elm sahəsindən köklü nəslin davamçısı olan S.Qəniyev hələ gənc yaşlarından işində aktiv fəaliyyət göstərərək qohumu, məşhur yazıçı, filoloq, ədəbiyyatşünas, professor Əzizə Cəfərzadənin də əvəzsiz biliklərindən bəhrələnərək, xanımın oğlu Əhməd Cəfərzadə ilə elm sahəsi üçün bir çox kitablar, həmçinin çoxsaylı məqalələr ərsəyə gətirmişlər. Onların birgə səmərəli fəaliyyəti “Şamaxı” elmi monoqrafik əsər ilə nəticələnmişdir. Demək olar ki, bu kitab o dövr üçün (1994-cü il) Şamaxı haqqında yazılmış nadir əhatəli əsərlərdən biri idi. On üç fəsildən ibarət olan kitabda Şamaxı bölgəsi müxtəlif aspektlərdən: tarixi-etnoqrafik, mədəni-ədəbi mühiti, aşıq sənəti, dini mühiti, o zaman üçün bölgəyə müasir baxış və s. kimi mövzularla açıqlanmışdır. *“...Professor Ə.Cəfərzadənin elmi redaktorluğu ilə yazdığı kitabının hər bir fəslindən sonra ulu Şirvanla bağlı görəcəyi işlər haqqında oxuculara ümumi məlumat vermişdir. İllər ötüb keçdikcə həmin fəsillərin hər biri ayrı-ayrı kitablara dönmüşdür. Elə bu cəhətinə görə yaxınlaşsaq “Şamaxı” əsərinə sadəcə kitab demək haqsızlıq olardı. Mənim fikrimə görə, bu əsəri Şamaxı haqqında yazılmış ilk ensiklopediya, epopeya, salnamə adlandırmaq daha ədalətli olardı”* [1, s. 148].

Müəllif burada bölgənin ümumi tarixi-mədəni mənzərəsini canlandırır, Şamaxıda mövcud mədəniyyət işçilərinin, qəhrəman və xalqa qürurla xidmət edən şəxsiyyətlərin qısaca fəaliyyəti işıqlandırılır. Lakin Şamaxı olduqca zəngin və geniş mövzu olduğundan bir kitabla onun bütün sərvətinin elmi əsasını təfsir etmək, tamamlamaq mümkün deyil. Burada seçilmiş mövzuların ən əsas məqamlarına toxunulub. Bir neçə filoloqun toplanaraq ərsəyə gətirdiyi ensiklopedik xarakter daşıyan “Şamaxı” kitabında [2] hər mövzu üzrə müəyyən qısa məlumat verilmiş, kitab elmi əsaslı olması ilə yanaşı filoloji baxışı, həmçinin publisistik və ədəbi yazı dili ilə xüsusi marağa səbəb olmuşdur: *“- Şamaxım mənim! Tarixlər şahidim. Azərbaycanımın ağsaqqal diyarı. Yaşını bilən, mənanı açan varmı? Tarixə Kamaxeya, Samaxeya, Mamaxeya, Yəzidiyyə və ya Əlyazidi kimi adlarla daxil olmusan. Adının mənasını “şam”-“əxi” (şamın qardaşı), gah “Şah”-“mah”i (şah şəhəri) gah şamlıq, gah da “şam”-“xi” (göy dağ) və s. kimi yozurlar. Düzdürmü? Bilən kimdir?! İllər keçəcək, əsrlər ötəcək, yenə də araşdıracaqlar dəqiq yaşını...* [2, s. 5]. Kitabda Şamaxının toponimik tarixi bədii dillə ifadə edilir. Bu yazı dili bir qədər elmi üslubdan fərqlənsə də kitab bölgənin etnomədəni mühitinin açılması baxımından əlavə dərs vəsaiti kimi lazımlıdır. Eyni zamanda bu nəşr Şamaxı haqqında elm irsinə bəxş olunan ilk monoqrafik kitablardan biridir. Nəzərə alaq ki, bu kitab ümumi təsvir xarakteri daşıyır və burada tədqiqatçılar, etnomusiqişünaslar üçün önəmli olan tarixi faktlara, görkəmli şəxsiyyətlərin xatirələrinə və fikirlərinə rast gəlmək mümkündür. Fəsillərlə

təqdim olunan hər bir mövzu ayrılıqda öz mütəxəssisi tərəfindən peşəkar nəzərlə dərindən işlənməyi, araşdırılmağı gözləməkdədir.

Burada nəzərə çarpan əsas məqamlardan biri tədqiqatçıların Şirvan-Şamaxı mühitinin xanəndə və aşıqlarının repertuarlarına məxsus təqdim etdikləri havacatların tam olmayan siyahısı ilə bağlıdır. Belə ki, kitabda pişro-lar[1] peşrev adı altında və cəmi beş növ təqdim edilib. Şamaxıda apardığımız tədqiqatlar[2] nəticəsində 12 peşrovun mövcudluğu bizə məlumdur. Həmçinin peşəkarlarla apardığımız müsahibələr, tədqiqatlardan əldə etdiyimiz şikəstə və gəraylı siyahısı ilə də "Şamaxı" kitabındakı [2, s. 110] şikəstə və gəraylı adları uyğun gəlmir. Kitab tədqiqatçılarının etnomusiqişünas olmadığını nəzərə alaraq deyə bilərik ki, ümumilikdə kitabda bir çox maraqlı məqamlar açılmışdır, bölgənin mədəni mühiti üzrə tədqiqatlarımız zamanı kitabda təqdim olunmuş məlumatların istiqamətindən gedərək mövzuları daha ətraflı açmağa imkan yaranmışdır. Onu da qeyd edək ki, digər müəlliflər Rafiq Alışov və Sərvan Rəsulovun kitabın çapı və ərsəyə gəlməsində böyük rolu olmuşdur.

S.Qəniyev yaradıcılığında Şamaxı ədəbi mədəniyyətini açarkən poetik məzmunla yanaşı bu bölgənin aşıq sənətinin ustadlarının yaradıcılığı və onların repertuarları ilə də yaxından maraqlanmış, dəyərli məlumatlar vermişdir. Bu qəbildən olan tədqiqat işləri içərisində ustad aşıq Mirzə Bilala həsr olunmuş araşdırmalar xüsusi yer tutur. Yaradıcılığı ilə Şirvan aşıq sənətinin repertuar diapazonunu genişləndirmiş, fərqli məktəb yolu açmış ustad aşıq Mirzə Bilalın sənət yolu tədqiqat obyekti olaraq maraqlıdır. İlk dəfə Qəniyev S. "Şirvanlı Aşıq Bilal" [3] məqaləsində ustad aşığın həyat və yaradıcılığı mövzusunda apardığı tədqiqat işini oxuculara təqdim edir. Burada aşığın yaşadığı mühit, aldığı təhsil, ustadları və yaradıcılıq uğurlarından bəhs olunur. Heç təsadüfi deyil ki, tədqiqatçı bu mövzuya fərqli illərdə dəfələrlə müraciət etmiş, Aşıq Mirzə Bilal haqqında "Şamaxı" [2, s. 86] kitabında, "Repressiya qurbanı Aşıq Mirzə Bilal" məqaləsi ilə [4] və daha sonralar ustadın yaradıcılığını daha da əhatəli tədqiqini, geniş kitab şəklində oxuculara təqdim etmişdir [5]. Şirvanlı Aşıq Mirzə Bilal adlı monoqrafik kitabda ustad aşığın repertuarı haqqında yazılmış, ifa etdiyi şeirlər və dastanlardan ədəbi mətnlər təqdim olunmuşdur. Burada V fəsil Aşıq Mirzə Bilalın dastan repertuarına həsr olunmuşdur. S.Qəniyev Mirzə Bilalın dastan repertuarının ilk dəfə təsnifatını apararaq 4 qrupa ayırmışdır:

1. ***Azərbaycan xalq dastanları***
2. ***Azərbaycan xalq dastanlarının Şirvan variantı***
3. ***Şirvan aşıq mühitində formalaşmış dastanlar***
4. ***Aşıq Mirzə Bilalın bağladığı dastanlar*** [5, s. 144]

Bu təsnifat ustad Aşıq Mirzə Bilal repertuarına sistemli yanaşma olub, onun yaradıcı xarakteristikasının açılması aspektindən olduqca önəmlidir. Kitabda Aşıq Mirzə Bilalın dastanlarda etdiyi müəyyən dəyişikliklər "Alıxan və Pərixanım" dastan nümunəsi əsasında yaxından təhlil olunmuş, yaradıcı müdaxilənin

uğurlu nəticəsi tədqiqatçı tərəfindən elmi nəzərlərlə əsaslandırılmışdır. Tədqiqatçı hər bir qrupa aid olan dastanları da ayrı-ayrı siyahı şəklində təqdim etmişdir. Həmçinin alim burada sənətkarın repertuarında ən çox müraciət etdiyi dastanları ayıraraq, adlarını sadalayır. Onlar sırasında: *"Qurbani", "Abbas və Gülgəz", "Tarhir və Zöhrə", "Əsli və Kərəm", "Aşıq Qərib", "Koroğlu", "Seydi və Pəri", "Novruz", "Əmrah"* və s. kimi dastanlar vardır [5, s. 144]. Daha bir dəyərli tədqiqat işi VI fəsildə Şirvan aşıq mühitində saz havacatları və Mirzə Bilal kimi önəmli mövzu ilə aparılmışdır. Burada S.Qəniyev görkəmli etnomusiqişünas alimlərdən Ə.Bədəlbəyli, B.Hüseynli, T.Kərimova, K.Axundova və b. ciddi tədqiqat işlərinə istinad edir. Bu da kitabın musiqi təhlili yönümünün daha düzgün açılmasına xidmət göstərmişdir.

Eyni zamanda əsərdə dövrünün digər ustadları haqqında qısa məlumatlara və onların yaradıcılığından nümunə şeirlərə rast gəlinir. Tədqiqatçı IV fəsildə Mirzə Bilalın sənət dostları bölməsində çoxsaylı sənətçilərin həyat və yaradıcılığını açmış və kitabın sonunda, XII fəsildə [5, s. 294-305] 176 nəfərlik Şirvan aşıq mühitinin aparıcı sənətkarlarının, Mirzə Bilalın sələfləri, müasirləri və xələflərinin geniş siyahısını sistemləşdirərək, doğum tarixi və s. kimi məlumatları əlavə etmişdir. Təbii ki, bu yazılar XIX əsr Şirvan (Şamaxı) mədəni mühitinə aid ustad sənətkarların həyat və fəaliyyəti haqqında fikir əldə olunması baxımından önəmlidir. Şirvan aşıq mühitinin, onun görkəmli nümayiəndələrinin həyat və yaradıcılığının daha dərindən araşdırılması mövzusu alim S.Qəniyevi narahat edən tədqiqat problemlərinin əvvəlində gəlir. O, Şirvan aşıq mühitinin tədqiqat tarixi haqqında kəskin fikirlər qeyd etmişdir: "... *folklor tədqiqatçıları XX əsrin 30-cu illərdən bəri tərtib etdikləri toplu və ya "Aşıqlar" kitabına Şirvan aşıq mühitində yaşamış iki yüz nəfərə qədər aşıqdan cəmi-cümlətanı 7-8 nəfəri daxil etmiş. Folklorşünas alimlər tədqiqatlarında isə böyük tarixi, ənənəsi olan Şirvan aşıq mühitindən demək olar ki, heç bəhs etməmişlər. Şirvan aşıqlarının həyat və yaradıcılığı demək olar ki, öyrənilməmişdir. Uzun illər tənqidə məruz qalan Şirvan aşıq mühiti barədə hətta respublika aşıqlarının III-IV qurultayında bir çox "sənət biliciləri" ağlasığmaz "fikirlər" söyləməklə həlælik təməlini Aşıq Dostu Şirvani (XVI-XVII əsr) ilə hesabladığımız dörd yüz ildən artıq yaşı olan böyük mühitin yaratdığı sənəti şübhə altına qoymağa səy göstərmişlər. Həmin qarşıdurmadan sonra həqiqi folklorşünas alimlər bu mühitin özünəməxsus xüsusiyyətləri, cəhətləri, ənənəsi barədə dəyərli fikir söyləməyə başladılar"* [6. s.27-28].

Tədqiqatçının eyni məqsədlə tədqiq olunmuş daha bir monoqrafik kitabı da "Şirvanlı Aşıq Xanmusa" [6] əsəridir. *"İyirminci yüzilliyin 90-cı illərindən sonra Şirvan folklor mühiti ilə bağlı çap etdiyimiz monoqrafiya və toplulara- "Aşıqlar və el şairləri" (Bakı,1993), "Şirvan aşıqları" (Bakı, 1993), "Şirvan aşıqları" (1997) Aşıq Xanmusanın həyatı, yaradıcılığı ilə yanaşı şeirlərindən nümunələr də daxil etmişik."* [6, s. 29-30]. Aşıq Xanmusa haqqında ilkin məlumatı S.Qəniyev ilk dəfə "Şamaxı" kitabında [2, s. 92] qısa bioqrafik məlumat olaraq paylaş-

mışdır. Ardından 2004-cü ildə ərsəyə gətirdiyi kitabında isə Mirzə Bilala həsr olunmuş monoqrafiyasında olduğu kimi ustad aşığın yaradıcılığı müxtəlif aspektlərdən araşdırılmış, şeirləri təhlil olunmuş, yaradıcılıq xüsusiyyətləri müəyyənləşdirilmişdir. Şirvan aşıqlarının əksəriyyəti kimi Aşıq Xanmusa da muğam sənətinin bilicilərindən idi. Bu mövzuya "Şirvanlı Aşıq Xanmusa" kitabında da toxunulur, aşığın öz dilindən olan xatirələrdən qeyd olunur: *"Klassik poeziyaya bələd olan atam həmişə Füzuli və Seyiddən qəzəllər söyləyərdi. Neçə vaxt el-obadan ayrı düşdüyüm, ömür-gün yoldaşının yoxluğunu xiffət etdiyi üçün atam çox zaman bu misralı "Kimsə açmaz qapımı, badi-səbadan qeyri" qəzəli "Segah" üstündə çox yanıqlı bir səslə ifa edərdi. Mən də ilk dəfə muğamları atamın ifasından öyrənmişəm. Segahbaz idi atam. Elə mən özüm də onun kimiyəm. "Segah" mənə ayrı cür təsir bağışlayır"* [6, s. 18-19]. Heç təsadüfi deyil ki, Aşıq Xanmusa repertuarında daha çox segah məqamına əsaslanan parçalar yer alardı. Aşıq Xanmusa muğam biliklərinin genişlənməsini uzun illər Mirzə Məhəmmədhəsən kimi sənətkardan muğamın sirlərinə yiyələnmiş, zurna-balaban ustadı Kalvalı Əli Kərimovla olan dostluq, əməkdaşlıq ənənələrinə də bağlayır. Kitabda bu haqda belə qeyd olunur: *"... Aşıq Xanmusa deyir: "Əli Kərimovla mən bir müddət yoldaşlıq etmişəm. Özü də cavan vaxtlarımda. O kişidən mən M.Ə.Sabir, A.Səhhət, M. Hadi kimi əvəzsiz şairlər, Aşıq İbrahim, Aşıq Bilal kimi ustad aşıqlar, Ü. Hacıbəyov kimi cahanşümul bəstəkar haqqında o qədər xatirələr eşitmişəm ki, gəl görəsən. Ən başlıcası, o, mənə Aşıq Bilalın söylədiyi nağılları, ifa etdiyi aşıq havaları və muğamları olduğu kimi aşılaya bildi. Mənim iki ustadım olub; - Aşıq Abbas və Əli Kərimov*" [6, s. 79]. Kitabın bir başa Aşıq Xanmusanın özünün verdiyi məlumatlar əsasında yazılması, onu daha da ətraflı, və dəqiq məlumatlarla dolğun edir. Bu da ustad sənətkarın yaradıcılıq qaynaqlarının, ifa üslubu və ənənələrinin ətraflı açılmasına xidmət edir.

Aşıq Xanmusanın yaradıcılığının spesifik cəhətlərindən biri də onun sufizm elementləri göstərməsi idi. Bu məqama diqqət çəkən S.Qəniyev onun yaradıcılığındakı sufi düşüncə barədə belə yazırdı: *"... həmişə "meyli haqda dolanan, Tanrı sevgisinə bələnmiş və dini, təsəvvüf-ürfani dəyərli şerləri ilə" Şirvan aşıq poeziyasını daha da zənginləşdirmiş və birdəfəlik Dədələrin boy sırasında dayana bildi Aşıq Xanmusa"* [6, s. 29]. S.Qəniyevin tədqiqat zamanı bu məqamlara xüsusi toxunması, sufizm mövzusunun təyin olması, aşığın musiqi xarakteristikası və rəqs ənənələri haqqında təsəvvürlərin yaranmasında rol oynayır.

S. Qəniyevin Şirvan aşıqları haqqında olan monoqrafik kitablarına nəzər saldıqda deyə bilərik ki, tədqiqatçının araşdırma üslubu hər əsərdə bir-birinə oxşardır. O, Şirvan mühitində fəaliyyət göstərmiş bütün aşıqları araşdırmış, çoxları haqda geniş, bəziləri haqqında isə sadəcə yaşadığı illər və həyatı olmaqla qısa materiallar toplaya bilmiş və bu məlumatları hər hansı bir sənətkara həsr olunmuş monoqrafiyanın daxilində, həmin sənətkarla bağlı olaraq (ustadın sənət dostları, şagirdləri, sələfləri və s.) müxtəlif başlıqlar altında təqdim etmişdir. Mono-

qrafiyaların mündəticatlarının daxilində istiqamətlərin əksəriyyəti yaxınlıq təşkil edir. Nəticədə deyə bilərik ki, bu xüsusiyyətinə görə monoqrafiyalar silsiləvi xarakter daşıyır. S. Qəniyevin bu tipli monoqrafiyaları sırasında Aşıq Soltan, Aşıq Şamil, Aşıq Yanvar, Aşıq Şakir, Aşıq Ağalar, Aşıq Pənah, Aşıq Məmmədağa, Aşıq Hacalı, Aşıq Barata həsr olunmuş əsərlər vardır. *"Professor Seyfəddin Qəniyev təkcə məşhur Şirvan aşıqlarının deyil, həmçinin uzun müddət elmi ictimaiyyətə məlum olmayan aşıqların həyat və yaradıcılığını araşdırıb, onların bu günə qalan nə irsləri varsa, bir yerə yığıb, toplu halında nəşr etdirib"* [7, s. 14]. Bu tədqiqatların hər biri Şirvan aşıqlarının adlarının, yaradıcılığının unudulmaması və yaşadılması baxımından mühümdür.

S.Qəniyev üçün Şirvan musiqi mühiti, folkloru tədqiqat obyekti olaraq hər zaman maraqlı və aktual mövzu idi. Təsadüfi deyil ki, tədqiqatçı alim doktorluq dissertasiya mövzusu olaraq da məhz Şirvan folklor mühitini seçmiş və dissertasiya eyniadlı kitabla nəticələnmişdir. Görkəmli xanəndə, xalq artisti, Şamaxı torpağının yetirməsi Alim Qasımov da bu barədə yüksək fikirlər dilə gətirmişdir: *"...Məni bir sənətkar kimi ən çox sevindirən Seyfəddin müəllimin Şirvan aşıq sənəti ilə bağlı apardığı tədqiqatlar və nəşr etdiyi kitablardır. O, sorağı XVII əsrdən günümüzə qədər gələn 400 nəfərdən artıq Şirvan aşıqlarının həyatını min bir əzabla öyrənmiş, onlar haqqında xatirələr, əsərlərindən nümunələr toplamış, kitablar yazmışdır"* [1, s. 23].

S.Qəniyev tədqiqatlarında müasir dövr Şirvan aşıq sənətində xüsusi rola malik olmuş Aşıq Şakir yaradıcılığının da nəzəri təhlilinə rast gəlinir. Şamaxının tanınmış, ustad aşıqlarından olan Aşıq Şakir fəaliyyətin müəllifin "O, sazla-sözlə yaşayırdı..." adlı məqaləsində təcəssüm olunur: *"Şirvan aşıq yaradıcılığında sənət və sənətkarlığın meyarı xalqın, elin, sənətin yaddaşı idi. Aşıq Şakiri "Şirvanın bülbülü" də adlandırırdılar. Bu adı ona təsadüfi verməmişdilər. "Xarı bülbül" Azərbaycan poetik düşüncəsində çox incə, çox zərif məqamlarla bağlıdır. O məqamlarla ki, Azərbaycan türk poetik düşüncəsinin verə biləcəyi maksimum estetik zirvədir. Şakirin adı məhz həmin zirvəyə bağlanır. "Elin gözü tərəzidir" – deyiblər. Bu ifadə də minillərin sınaq yükü var. Şakir sənəti "el tərəzisindən" keçib bu ünvana – xarı bülbül məqamına çatıb"* [8, s. 14].

Ömrünü araşdırmalara həsr edən S.Qəniyevin kitabları sırasında folklor və aşıq yaradıcılığı ilə bağlı əsərlər çoxluq təşkil edir. Kitablarda aşığın musiqiçi simasından ziyadə yazdığı şeirlər, mətnlər böyük yer tutur. Haqqında yazdığı şəxsiyyətin həyat və yaradıcılığını açarkən isə mövzuya peşəkar yanaşmanı dövrünün dəyərli musiqiçilərinin fikirləri, xatirələri ilə dəstəkləyir. Kitablarda çoxluq təşkil edən haşiyə xatirələr oxucu üçün kiçik ekspedisiya əhvalı yaradır. Həmçinin S.Qəniyevin kitablarında təqdim olunan aşıq repertuarları, dövrün etnomədəni təsviri, alətlər haqqında məlumat tədqiqatçılar, musiqişünaslar üçün də dəyərli faktlardır. Tədqiqatçı Şirvan aşıq mühitini mahiyyəti etibarilə digər bölgələrlə müqayisə edərək belə nəticəyə gəlmişdir ki, Şirvan aşıq yaradıcılığının

kökündə dayanan klassik muğam, rəqs və klassik poeziya ənənələri onun əsas fərqləndirici xüsusiyyəti olub, fərdiliyini təmin edir. Bu barədə araşdırmaçı "Şirvan aşıqları" [9] kitabının "Şirvan aşıq mühiti" bölməsində ətraflı təhlil aparır. Burada müəllif Şirvan aşıq mühitini tədqiq etmiş alimlərinin elmi nəticələrindən nümunə gətirərək, elmi istinadlar verir. Bu kitabda XVI əsrdən müasir dövrə qədər fəaliyyət göstərmiş 200 nəfərə yaxın Şirvan aşığının həyat və yaradıcılığı tədqiq olunmuşdur. Bu əsər də müəllifin digər tədqiqat işləri kimi mahiyyəti etibarilə olduqca dəyərlidir.

Şamaxı bölgəsinin musiqi mühitinin tarixi araşdırılarkən əsasən nəzərimiz tanınmış xeyriyyəçi Mahmud Ağanın ədəbi məclislərinə yönəlir. Bu mövzuya aydınlıq gətirən "Məşhur xeyriyyəçi Mahmud Ağa və naməlum muğam universiteti" [10] adlı kitabı xüsusi diqqətə layiqdir. Əsər professor S.Qəniyev və əməkdar müəllim S.Veysovanın həmmüəllifliyi ilə ərsəyə gəlmişdir. Dövrün kübar ziyalı mühitinin təsviri ilə yanaşı, Şamaxının musiqi abı-havasını da açıqlamaqla kitab sənətşünasların maraq dairəsinə daxil olur. *"... İnstitutda oxuduğum illərdə sevimli müəllimim, akademik Feyrulla Qasımzadə bizə "XIX əsr Azərbaycan ədəbiyyatı tarixi" fənnini tədris edərkən Şamaxıdakı iki - Mahmud Ağanın musiqi və Seyid Əzim Şirvaninin "Beytüs-Səfa" məclisi barədə verdiyi məlumatlar məni bir daha cani-dildən Şamaxı ədəbi-musiqi mühitinə bağladı. Odur ki, bu mühiti əvvəl sevdim, sonra öyrəndim, daha sonra dərindən araşdırmağa səy göstərdim"* [10, s. 7]. Kitab Şamaxı bölgəsinin timsalında Azərbaycanın köklü mədəni sərvəti olan muğamlarımızın fəlsəfi dünyasını, onun xalqımızın tarixində oynadığı əvəzsiz rolu araşdırmağı məqsəd götürür. Məhz I fəsil Şirvan (Şamaxı) muğam mühiti ilə açılır. Muğam sənətinin yaranma tarixini faktiki açıqlamaq mümkün olmasa da müəllif XIV əsrdə artıq Şamaxıda kamil muğamın yayılmasını görkəmli şair Nəsiminin muğamların şöbə və guşələrinin adı çəkilən "*Həsrət yaşı, hər ləhzə qılır bənzimizi saz"* başlıqlı qəzəli ilə əlaqələndirir. Ardından qəzəlin məna dərinliyini və şairin muğamlar haqqında verdiyi məlumatı müəllif elmi-nəzəri cəhətdən açıqlamağa çalışır [10, s. 17-18]. Həmçinin tədqiqatçı burada görkəmli şair İ.Nəsiminin də muğam biliklərinin yüksək səviyyədə olmasından maraqlı bir nəticə çıxarır. Müəllifə görə sufi - şəriət, təriqət, mərifət, həqiqət mərhələlərinə yetən dərvişlər muğam şöbələrini məlahətli səslə ifa edər, eyni təriqəti daşıyan şair Nəsimi də bu səbəblə muğamların mahir bilicisi və ifaçısıdır. Ortaya çıxan "XIV əsrin sonlarında Nəsimi muğam dərslərini kimlərdən almışdır?" məntiqi sualını isə tədqiqatçı belə cavablandırır; *"...Təbii ki, hələ orta əsrlərdən musiqi beşiyi olan Şamaxının muğam biliciləri və ya ustad sənətkarlarından"* [10, s. 19]. Eyni fəsildə müəllif XII-XIV əsrlərdə yaşamış klassik şairlərin əsərlərindən ***cifti saz, cəng, ərqanun, rübab, təmbur, şurna, nəfir, nay,qaranay, daxul, zəng*** və s. kimi günümüzdə istifadə olunmayan musiqi alətlərin də adını çəkir.

Əksər mənbələrdə Şamaxıda muğam məclisi deyiləndə ilk Mahmud Ağanın fəaliyyəti dilə gəlir. Lakin burada Azərbaycanda və xüsusilə Şamaxıda muğam sənətinin inkişafında Mahmud Ağa ilə yanaşı, onun musiqisevər atası Əhməd Sultanın əvəzsiz rolu da xüsusi qeyd olunur. "*Əhməd Sultan və Mahmud Ağa XIX əsrdə Şamaxıda böyük bir muğam məktəbi yaratmağa, demək olar ki, Azərbaycanda ilk dəfə şəxsi varidatı hesabına muğam müsabiqələri keçirməyə müvəffəq olmuşlar*" [10, s. 59].

Azərbaycanın hər bir bölgəsindən Şamaxıdakı məclislərə, müsabiqələrə toplaşan sənətkarların bilgi mübadiləsi sənətin inkişafının sürətlənməsində mühüm amillərdən idi. Məhz ustad xanəndə Davud Səfiyarov da bu mühitin yetirmələrindən biri olmuş, Mahmud Ağanın istiqamətləndirməsi və dəstəyi ilə o, Azərbaycan muğam sənəti tarixində iz qoymuşdur. Belə ki, Davud Səfiyarovun anası Mahmud Ağanın malikanəsində çalışdığı dövrdə Mahmud Ağaya oğlunun səsi olduğunu deyir və onu ilkin yoxlamadan keçirən xeyriyyəçi, istedadlı Davudu dövrünün görkəmli ustadı Mirzə Məhəmmədhəsənin yanında şagird qoyur. Qısa zamanda muğamları öyrənən Davud Səfiyarov məclislərdə dinləyicilərin rəğbətini qazanaraq tanınmağa başlayır. S.Qəniyevin Mahmud Ağa fəaliyyəti haqqındakı bu kitabı da məhz bölgənin mədəni həyatını yüksəltmiş ədəbi məclisin maraqlı faktları ilə bizi tanış edir [10, s. 48].

S.Qəniyevin fəaliyyətinin musiqi tədqiqatına faydalı qismlərindən biri də illərdir onun redaktorluğu altında mütəmadi dərc olunan "Beytüs-səfa" davamçıları[3] jurnalıdır. Eyniadlı jurnalda Şamaxının qədim və müasir dövr mədəni mühiti haqqında rəngarəng elmi tədqiqat işləri, həmçinin publisistik yazılar və xəbərlər dərc olunur. S.Qəniyev yazır: *"...855 nəfər Şirvan saz şairlərinin 35 nəfəri haqqında ilk monoqrafiyanı mən yazmışam; biri də "Şirvanlı Aşıq Yanvar"dı..."* başlıqlı yazısı diqqət çəkir. Burada o, X-XI əsrdən bu günə kimi Şirvan nisbətli şairlərin (şair, el şairi, aşıq, yazıçı, dərvişlərin) 2555 nəfər olduğunu müəyyənləşdirdiklərini və bu məlumatları "Şamaxı", "Şirvan aşıqları", "Şirvanın 350 şairi" və b. kitablarla oxuculara təqdim etdiyini qeyd edir [11, s. 8]. Jurnalda dərc olunan çoxsaylı məqalələr, mədəni xəbərlər sayəsində Şamaxı bölgəsinin bugünkü etnomədəni mühiti haqqında da məlumat almaq mümkündür.

S.Qəniyev tədqiqatları ilə Şirvanın çoxsaylı incəsənət xadimlərinin yaddaşlardan silinməkdə olan adları, onların Azərbaycan mədəniyyətinin inkişafında göstərdiyi xidmətləri geniş işıqlandırmışdır. Şamaxının istedadlı musiqiçiləri hər dövrdə mədəniyyətimizə əvəzsiz tövhələr vermişlər. "*Rzaəddin Şirvani haqqında bircə yarpaq. Ö.Çələbi "Səyahətnamə"sində yazır: "Şeşxanə - icad edəni Rzaəddin Şirvanidir. Bu da telli sazdır. Ud kimi burğu yerləri əyridir. Qolu uddan uzuncadır, gövdəsinə balıq qursağı çəkilmişdir. Amma pərdələri yoxdur. Altı teli olduğundan* ***şeşxanə*** *adlanır. Çətin bir saz isə də bütün muğamat bunda icra oluna bilir..."* [2, s. 93]. Belə kamil alətin ifası günümüzə çatmasa da onun icadı mədəniyyət tariximiz üçün əvəzsiz tövhədir. Bu məlumatları yenidən gündəmə

gətirmək də tədqiqatçının fəaliyyətinin müsbət tərəfidir. Məhz bu təsvir əsasında orqanoloqlar yenidən bu alətin bərpası haqqında düşünə bilər.

Təbii ki, Şamaxıda musiqi, muğam mühitinin nə zaman yaranması sualı tədqiqat üçün önəmli mövzudur. Bu haqda M.Məhəmmədhəsən, F.Şirvaninin "Nalə" kitabında qeyd olunur: "*Azərbaycanın ən qədim və zəngin tarixə malik elm, ürfan, ticarət, mədəniyyət mərkəzlərindən sayılan Şamaxı şəhəri həm də poeziya və muğam beşiyi olmuşdur. Min ilə yaxın dövlətçilik ənənəsinə malik olmuş Şamaxıda muğam sənətinin nə vaxtdan təşəkkül və intişar tapdığını dəqiqləşdirmək o qədər də asan deyildir. Təkcə onu qeyd etmək kifayətdir ki, XII əsrdən üzü bəri Şirvanşahlar sarayında şairlərlə yanaşı, xanəndə, rəqqasələr də yaşayıb yaratmış və onların səsi-sorağı müxtəlif ölkələrə yayılmışdır"* [12, s. 3][4].

Alim S.Qəniyevin tədqiqatları içində iki hissədən ibarət "XIX əsr Şamaxı ədəbi mühiti" [13] və "XIX əsrdə Şamaxının yaradıcı mühiti" [14] adlı yazısı bu dövrdə Şamaxının mədəni mühitində rol oynayan şəxsiyyətlər haqqında verilən məlumatlarla zəngindir. Burada əsasən Mahmud Ağa məclislərinin iştirakçısı olmuş sənətçilərdən, Məşədi Zeynalabdin, Allahverən Şıxı oğlu, Güllübəyim Mir Mahmud qızı, Mirzə Cavad, Cəlaləddin (Cəlal) Ünsizadə, Kamal Ünsizadə yaradıcılığına nəzər salınır. Bundan əlavə S. Qəniyev Şamaxı musiqi mədəniyyətini "Şamaxı mədəniyyətinin keçmişini araşdırarkən..." adlı məqaləsində [15] bir daha ətraflı nəzər salır. Yazılı mənbələrin əksəriyyətinin XIX əsrə aid olmasına əsasən məqalə də bu dövrü əhatə edir. Burada Şamaxının yüksək mədəni inkişafı, xarici və yerli bölgə sənətkarlarının Şamaxı səfərləri haqqında məlumat verilir. Təbii ki, bu dövrdə Şamaxıda musiqi mədəniyyətinin inkişafının əsas təkanverici qüvvəsi olaraq Mahmud Ağa məclisləri idi. O, bu dövrü belə təsvir edir; "*Mahmud Ağa müsabiqəsinin başqa bir dəyərli tərəfi o idi ki, bu məclisdə təkcə Azərbaycanda deyil, Təbriz, Tiflis, Dərbənd, hətta Orta Asiyada yaşayan həmyerlilərimiz bir-birinin sənətlərinə bələd olduqları qədər də uzun illər dostluq edər, sənətlərini təbliğ etməklə öyünərlərmiş. Yəni Mahmud Ağa məclisi muğam dünyasının təsnələrini qədim Şamaxıda bir araya cəm edə bilmişdi. Cabbar, Mirzə Məhəmməd Həsənin «Şur»da vurduğu xalları, Davud Səfyarov, Məşədi Zeynal zəngulələrini, Məşədi İsi, Səttarın oxuduğu xalq mahnılarının şirinliyini, Hacı Hüsü, Topal Məmmədqulunun alt-üst mizrablarının ecazkarlığını, Malıbəyli Cümşüd, Sərənc Zeynalın, Sadıqcanın bülbül ləhcəli ününü, Natəvanın qəzəllərini, söz sərrafı Seyidin şah beytlərini, Ağanın öz şirin səsindəki məlhəmini, Bülbülcan, Aşıq İbrahim, Aşıq Bilalın ərşə bülənd avazının bu məclisdə şahidi olmuş, özü də üzbəüz... Mahmud Ağanın yeni sarayı tikiləndən sonra Şamaxının bəy-bəyzadələri, tacir dostları daha çox məclislərə qatılmağa başladılar"* [15. s.14]. Mahmud Ağanın musiqiyə, saza-sözə olan marağı təsadüfi deyildi. Bu mənəvi ənənə ona ata-babasından genetik olaraq keçmişdi. XIX əsrdə Şamaxı mədəni mühitinin inkişafı təkcə Mahmud Ağa məclisləri ilə məhdudlaşmamışdır. Bu haqqda S.Qəniyev məqaləsində belə qeyd edir: "*S.Ə.Şirvani, Mirzə Məhəm-*

*məd Həsən Nalə, Aşıq Bilal, eləcə də, Mahmud Ağa və «Beytüs-Səfa» məclisi ilə bağlı apardığımız tədqiqatlar nəticəsində və dövlət arxivində «Samaxı bəyləri» haqqında olan sənədlərdən müəyyən etmişik ki, S.Ə.Şirvaninin dostu Ələkbər bəy şeirin, sənətin pərəstişkarı olan imkanlı şəxs olub. Bu cəhətinə görə o, Şamaxı ziyalıları arasında böyük nüfuz və hörmət sahibi idi. O, Mahmud Ağanın atası Əhməd Ağa ilə də «saqqaldaş», «cur» olub. Onun musiqi məclisində bəy dostları - Süleyman bəy, Xəlil bəy, Mürsəl bəy, Ağa bəy, Nəcəf bəy, Nağı bəy vaxtaşırı iştirak ediblər. Professor Ə.Cəfərzadənin məlumatına əsasən «Beytüs-Səfa»-nın keçirildiyi karvansara elə Mahmud Ağanın atasının olubmuş. Deməli, bu xeyirxah insanlar S.Ə.Şirvani məktəbinin yaşamasına maddi kömək göstərdikləri kimi, onun şeir məclisinin fəaliyyətinə də hər cür qayğı bəsləyiblər...”* [16. s.14].

S.Qəniyev əsl vətənpərvər kimi doğulduğu bölgənin tarixinə, mədəniyyətinə, incəsənətinə bağlı olub, kitablarında hər mövzuya toxunmuşdur. İndiyədək Seyfəddin müəllimin qələmindən işıq üzü görmüş 80-a yaxın elmi dəyəri yüksək olan kitabların hər biri bizi Şamaxının zəngin mənəviyyatı, məişəti, incəsənəti, ziyalıları, poeziyası, elmi və s. ilə yaxından tanış edir.

AMEA-nın Folklor İnstitutunun əməkdaşı, Aşıqlar Birliyinin İdarə heyətinin üzvü, “Şamaxı bölgəsi üzrə Yazıçılar Birliyi”nin sədri, pedaqoq, alim S.Qəniyev günümüzdə də fəaliyyətini aktiv şəkildə davam etdirir. Onun iştirakı ilə vaxtaşırı Mahmud Ağadan Şamaxı xalqına yadigar qalmış ənənə olan muğam məclisləri müasir dövrdə qismən də olsa keçirilir. Yazıçılar Birliyinin Şamaxı şöbəsi keçirdiyi tədbirlərlə bu ənənəni qorumağa səy göstərir. S.Qəniyevin təsisçisi və baş redaktoru olduğu “Beytüs-səfa davamçıları” adlı ədəbi-bədii və elmi-publisistik jurnalı hər ay ardıcıllıqla dərc olunur, Şamaxı poeziya yazarlarının, gənc tədqiqatçıların inkişafında mühüm rol oynayır. Bundan əlavə Bakı Dövlət Universitetinin pedaqoqu kimi Seyfəddin müəllim yeni nəslin savadlı elm xadimlərini yetişdirir, gənc alimləri düzgün istiqamətləndirir.

Bütün bunları nəzərə alaraq deyə bilərik ki, bəzi məqamlarda etnomusiqişünas nəzəri ilə kəsişən hallar olsa da, ümumilikdə S.Qəniyev Şamaxı mədəni tarixinin tədqiqində mühüm işlər görmüş və hələ də bu işini davam etdirməkdədir. Xüsusilə onun yaradıcılığı Şirvan aşıq sənətinin tədqiqi istiqamətində görüşmüş işlərlə olduqca zəngindir. Monoqrafiyalar sayəsindən ustad sənətkarların ifa üslubu, istifadə etdiyi poetik mətn əsası, müraciət etdiyi məqamlar haqqında məlumatlanmaq mümkündür. Bu əsərlər təkcə aşıqların yaradıcı fəaliyyətini açmaqla qalmır, onlara təsir edən mədəni mühiti, ətrafındakı dəyərli sənətkarların yaradıcılığını da əhatə edir. Fasiləsiz fəaliyyəti ilə Şamaxı mədəniyyəti haqqındakı biliklərimizi artıraraq, ədəbiyyatımızı genişləndirir. Bu istiqamətdə S.Qəniyev yaradıcılığı gənc nəsil folklorşünaslar üçün olduğu qədər, etnomusiqişünas, aşıqşünas, musiqişünas və sənətşünaslar üçün də dəyərlidir. Biz də Şirvan (Şamaxı) bölgəsinin ənənəvi musiqisi mövzusunu tədqiq edərkən, sözü gedən ədəbi mənbələrdən geniş yararlanırıq. Məqalə boyu qeyd etdiyimiz kitablar, tədqiqat

işləri, yazılar hər biri Şamaxı musiqi mühitinin, folklorunun, aşıq və muğam sənətinin ümumi mənzərəsinin təsvirində, müəyyən elmi səciyyəsinin açılma-sında əhəmiyyətli rola malikdir.

**Qeydlər:**

1. "Azərbaycanın Şamaxı bölgəsinin ənənəvi musiqisi" adlı dissertasiya işimizin tədqiqatları zamanı peşrovların fars mənşəli adı ilə bağlı apardığımız araşdırmala-ra əsasən bu janrın düzgün deyiliş və yazılışının "pişro" (*fars dil. "piş"- qabaq, ön, "ro" - gedən. Pişro – öndə gedən*) olduğu nəticəsinə gəlinib.
2. Bakı Musiqi Akademiyasının elmi tədqiqat laboratoriyasının təşkilatçılığı ilə keçirilən 04.07.2019 tarixli Şamaxı ekspedisiyası zamanı Aşıq Ağamuradın infor-matorluğundan əldə olunmuş məlumatlara əsasən (video material)
3. "Beytüs-səfa davamçıları" jurnalı hər ay işıq üzü görən ədəbi-bədii, elmi-publisis-tik jurnaldır. Təsisçi və baş redaktoru f.ü.e.d., Seyfəddin Qəniyevdir.
4. Qeyd edək ki, belə önəmli kitabın ərəb qrafikasından dilimizə transliterasiya edəni, əlavələrlə çapa hazırlayanı, ön söz və son sözün müəllifi də S.Qəniyev olmuşdur.

**ƏDƏBİYYAT:**


1. Allahmanlı M., Qəni T. Şirvan vurğunu, yollar yorğunu. B.: Elm və təhsil, 2018, 296 s.
2. Cəfərzadə Ə.; Qəniyev S.; Alışov R.; Rəsulov S. Şamaxı. B.: Səda, 1994, 200 s.
3. Qəniyev S. Şirvanlı Aşıq Bilal. //"Yeni Şirvan" qəz., Bakı, 1982, 15 iyun
4. Qəniyev S. Repressiya qurbanı Aşıq Mirzə Bilal. //"Dədə Qorqud" jurnalı, № 4, 2003 s. 16
5. Qəniyev S. Şirvanlı Aşıq Mirzə Bilal. B.: Nurlan, 2003, 307 s
6. Qəniyev S. Şirvanlı Aşıq Xanmusa. B.: Nurlan, 2004. 188 s.+ 8 s. şəkil
7. Qaliboğlu E. Şirvan aşıq sənəti. // "Xalq cəbhəsi" qəz., Bakı, 2009, 18 fevral, s.14.
8. Qəniyev S. O, sazla-sözlə yaşayırdı...// "Xalq Cəbhəsi" qəz., Bakı, 2016. 15 iyun. S.14.
9. Qəniyev S. Şirvan aşıqları. B.: Nurlan, 2007, 736 s.
10. Qəniyev S.; Veysova S. Məşhur xeyriyyəçi Mahmud Ağa və naməlum muğam universiteti. B.: Elm və təhsil, 2014, 292 s.
11. Qəniyev S. 855 nəfər Şirvan saz şairlərinin 35 nəfəri haqqında ilk monoqrafiyanı mən yazmışam; biri də "Şirvanlı Aşıq Yanvar"dı... // "Beytüs-səfa davamçıları" jurnalı. N-4 (6) oktyabr-dekabr 2017. 63 s.
12. Mirzə Məhəmmədhəsən, Fələkzadə Şirvani. Nalə. (tərtibatçı S.Qəniyev ) B.: Ozan, 2000, 71 s.
13. Qəniyev S. XIX əsr Şamaxı ədəbi mühiti. //"Xalq Cəbhəsi" qəz., Bakı, 2015. 17 avqust. s.14
14. Qəniyev S. XIX əsrdə Şamaxının yaradıcı mühiti. //"Xalq Cəbhəsi" qəz., Bakı, 2015. 21 avqust. S.14
15. Qəniyev S. Şamaxı mədəniyyətinin keçmişini araşdırarkən... // "Xalq Cəbhəsi" qəz.,- 2015.- 17 oktyabr. s.14.
16. Qəniyev S. Qədim Şamaxı ilə bağlı soraqlar Avropada. // "Xalq cəbhəsi" qəz., . 2015. 9 iyul. s. 14.

**Илаха ИСРАФИЛОВА**
Докторант БМА им. У. Гаджибейли
Научный сотрудник исследовтельской лаборатории

## МУЗЫКАЛЬНАЯ ИСТОРИЯ И КУЛЬТУРНЫЙ ЛАНДШАФТ ШАМАХИ В ИССЛЕДОВАНИЯХ УЧЕНОГО СЕЙФАДДИНА ГАНИЕВА

***Резюме:*** *Статья посвящена многолетней исследовательской работе известного азербайджанского фольклориста, ученого, педагога Сейфаддина Ганиева в области музыки, мугама и ашугского искусства в Шамахинском районе. В статье дается обзор книг автора, где сосредоточены ценные сведения, касающиеся музыкальной культуры Шамахи. Автор статьи отмечает, что все наблюдения Ганиева освещены с точки зрения фольклориста-филолога. В то же время, в работах С.Ганиева собраны воспоминания и мысли профессиональных музыкантов, важные исторические факты, что и делают эти научные труды привлекательными для музыковедов. В свете сказанного в статье высказаны и критические замечания по поводу некоторых наблюдений и заключений ученого.*
***Ключевые слова:*** *Махмуд-ага, мугамные меджлисы, искусство ашугов, шамахинский фольклор, Сейфаддин Ганиев, фольклор, ширванская музыкальная среда*

**Ilaha ISRAFILOVA**
Doctoral candidate of BMA named after U. Hajibeyli,
Fellow of the Research Laboratory

## MUSICAL HISTORY AND CULTURAL LANDSCAPE OF SHAMAKHI IN THE RESEARCH OF THE SCIENTIST SEYFADDIN GANIEV

***Summary:*** *The article is dedicated to the long-term research work of the prominent folklorist of Shamakhi, researcher, pedagogue Seyfaddin Ganiyev in the field of music, mugham and ashug art in Shamakhi region. The article draws attention to the essence of the many books that have emerged as a result of this research. The attitude to music, mugham, ashug art in the mentioned works are explored from the point of view of a folklorist and philologist.However, S.Ganiyev have collected the views and memories of professional musicians and important historical evidences, that makes the writings by S. Ganiyev attractive fro musicologists. In the view of above, there are also critical notes in the article regarding some observations and conclusions.*
***Keywords:*** *Mahmud Agha, mugham assembly, ashug art, Shamakhi folklore, Seyfaddin Ganiyev, folklore, Shirvan music scene*

**Rəyçilər:** dosent Zümrüd Məmmədova,
sənətşünaslıq üzrə fəlsəfə doktoru Mehparə Rzayeva